**"Kredit Evi" Açıq Səhmdar Cəmiyyəti**

Hər birinin nominal dəyəri 20 (iyrmi) manat olan 20 000 (İyirmi min) ədəd adi adlı sənədsiz səhmlərin

# EMİSSİYA PROSPEKTİ

**Qeyd:** Azərbaycan Respublikasının Mərkəzi Bankı bu Emissiya Prospektində olan məlumatların düzgünlüyünə görə məsuliyyət daşımır və nəzarət orqanı kimi onu qeydiyyata almaqla yerləşdirilən qiymətli kağızlara münasibətini ifadə etmir.

Bakı 2023-cü il

**MÜNDƏRİCAT**


BƏYANAT ... 4

XÜLASƏ ... 5

1. XƏBƏRDARLIQ ... 5
2. EMİTENT BARƏDƏ MƏLUMAT ... 5
3. SƏHMLƏR HAQQINDA MƏLUMAT ... 8
4. RİSK FAKTORLARI ... 10
5. TƏKLiF ... 12

I HİSSƏ ... 16

SƏHMLƏRİN EMİTENTi BARƏDƏ TƏLƏB OLUNAN MƏLUMATLAR ... 16

6. EMİTENTİN AUDİTORLARI BARƏDƏ MƏLUMAT ... 16
7. SEÇİLMİŞ MALİYYƏ MƏLUMATI ... 17
8. EMİTENT BARƏDƏ MƏLUMAT ... 17
9. EMİTENTİN BİZNESİNİN İCMALI ... 18
10. DİGƏR TƏŞKİLATLARDA İŞTİRAK ... 19
11. EMİTENTİN ƏSAS VƏSAİTLƏRİ ... 19
12. EMİTENTİN MALİYYƏ VƏ ƏMƏLİYYAT NƏTİCƏLƏRİNİN İCMALI ... 20
13. EMiTENTİN KAPİTAL RESURSLARI ... 21
14. TƏDQiQATLAR, LİSENZİYALAR VƏ PATENTLƏR ... 24
15. TENDENSİYALAR BARƏDƏ MƏLUMAT ... 24
16. GƏLiR PROQNOZU ... 24
17. EMİTENTİN TƏSİSÇİLƏRİ, İDARƏETMƏ VƏ NƏZARƏT ORQANLARI ... 24
18. EMİTENTİN İDARƏEDİLMƏSİNDƏ İŞTİRAK EDƏN ŞƏXSLƏRİN MÜKAFATLANDIRILMASI, İMTİYAZLARI VƏ DİGƏR KOMPENSASİYALARI ... 27
19. İCRA ORQANININ İŞGÜZAR PRAKTİKASI ... 27
20. EMİTENTİN İŞÇİ HEYƏTİ ... 28
21. EMİTENTİN NiZAMNAMƏ KAPİTALINDA MÜHÜM İŞTİRAK PAYINA SAHiB OLAN SƏHMDARLAR ... 28
22. AİDİYYƏTİ ŞƏXSLƏRLƏ ƏMƏLİYYATLAR ... 29
23. EMİTENTİN MALİYYƏ MƏLUMATLARI ... 29
24. EMİTENT HAQQINDA ƏLAVƏ MƏLUMATLAR ... 37

II Hissa .......... 40
SƏHMLƏR BARƏDƏ MƏLUMAT .......... 40
25. ƏSAS MƏLUMAT .......... 40
26. TƏKLİF EDİLƏN SƏHMLƏR HAQQINDA MƏLUMAT .......... 41
27. TƏKLİFİN ŞƏRTLƏRİ .......... 43
28. TİCARƏTƏ BURAXILMA VƏ ONUN TƏNZİMLƏNMƏSİ .......... 47
29. TƏKLİF EDİLƏN SƏHMLƏRİN MÜLKİYYƏTÇİLƏRİ HAQQINDA MƏLUMAT .......... 48
30. EMİSSİYA XƏRCİ .......... 48
31. PAYIN AZALMASI .......... 48

Emissiya Prospektinin tərtib edilməsində iştirak edən şəxslər və Emissiya Prospektində təqdim edilmiş məlumatlara dair

**BƏYANAT**

**Biz, aşağıda imza edənlər,**

**1.** Bu Emissiya Prospektini tərtib etməzdən öncə Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin 27 yanvar 2016-cı il tarixli 05 saylı qərarı ilə təsdiq edilmiş "Emissiya prospekti və informasiya memorandumuna dair tələblər haqqında" Qaydalar ilə tanış olduğumuzu təsdiq edirik.

**2.** "Kredit Evi" ASC-nin hər birinin nominal dəyəri 20 (iyrmi) manat olan 20 000 (İyirmi min) ədəd adi, adlı, sənədsiz səhmlərin Emissiya Prospektinə daxil edilmiş məlumatların həqiqi faktlar əsasında olduğu, heç bir faktın gizlədilmədiyi və bunun üçün bütün lazımi tədbirlərin görüldüyü barədə təminat veririk və məsuliyyəti öz üzərimizə götürürük.

**"Kredit Evi" ASC-nin Direktoru:**

Bağırov Elşad Ramazan oğlu: ____________________

**"Kredit Evi" ASC-nin Direktor müavini:**

Məmmədov Emin Fariz oğlu: ____________________

30.11.2023-cü il

# XÜLASƏ

## 1. XƏBƏRDARLIQ

**1.1.** Bu sənəd Emissiya Prospektinin giriş hissəsidir.

**1.2.** Səhmlərə investisiya etmək barədə hər hansı bir qərar investorun Emissiya Prospektini oxumasından sonra həyata keçirilməlidir.

**1.3.** Emissiya Prospektində olan məlumatların yalnış, qeyri-dəqiq, ziddiyyətli olduğu və ya səhmlərə investisiya edib-etməmək barədə qərar verən investorlara kömək etmək məqsədilə əsas informasiyanın verilmədiyi zaman Emissiya Prospektini hazırlamış şəxslər mülki məsuliyyat daşıyırlar.

## 2. EMİTENT BARƏDƏ MƏLUMAT

**2.1. Emitentin tam adı:** "Kredit Evi" Açıq Səhmdar Cəmiyyəti (bundan sonra Emitent va ya Cəmiyyət).

2.2. **Emitentin olduğu yer və təşkilati-hüquqi forması, emitentin qeydiyyatda olduğu ölkə:** Azərbaycan Respublikası, Açıq Səhmdar Cəmiyyəti, Bakı şəhəri, Nərimanov rayonu, Ak.Həsən Əliyev, 90 A

2.3. **Emitentin rəqabət apardığı əsas bazarların təsviri və cari il üzrə fəaliyyət kateqoriyası va coğrafi amilləri nəzərə alaraq ümumi gəlirlərin tədqiqi:**

"Kredit Evi" ASC lombard və lizinq bazarında fəaliyyət göstərir. Lombard bazarında şirkətin rəqibləri müvafiq məhsul təklif edən Banklar, BOKT-lər və lombard fəaliyyəti ilə məşğul olan şirkətlərdir. Cari ildə lombard kreditləri üzrə bazarda rəqabət daha da artmış və faiz dərəcələrinin azalması və müştərilər üzrə LTV (loan to Value) əmsalının artması ilə kredit təklifləri artmışdır. Qeyd etmək istərdik ki, Şirkət rəqabət mühitini daim diqqətdə saxlayır və mütəmadi olaraq bazarda rəqiblərin təklifləri təhlil olunaraq məhsul və xidmətlərə dəyişikliklər edilir. Qeyd edilən risklərin azaldılması üçün Şirkət öz fəaliyyəti üzrə coğrafi diversifikasiya edərək filial şəbəkəsini genişləndirmiş və filial şəbəkəsini regionlarda artırmışdır.

Şirkətin fəaliyyət göstərdiyi digər istiqamət lizinq istiqamətidir. Bu istiqamətdə də həm filial şəbəkəsinin böyüklüyü, şirkətin formalaşmış imici və partnyor avtosalonlarla əməkdaşlıq şirkətin rəqabət qabiliyyətini artırır.

"Kredit Evi" ASC-də kredit portfelinin diversifikasiya tədbirlərini həyata keçirmək strateji məsələlərdəndir. Bu tədbirin həyata keçirilməsi zamanı müştəri istəkləri çevik nəzərə alınır və təklif olunan məhsul və xidmətlərdə müvafiq müştəri yönümlü dəyişikliklər edilir. Bu strateji amillər sayəsində kredit portfelinin keyfiyyətli və risksiz idarə olunmasına nail olunur.

**2.4. Emitentə və onun əməliyyat apardığı sahələrə**

**təsir edən məlum tendensiyaların təsviri:** Azərbaycanda lizinq üzrə qanunvericilik keçən əsrin 90-cı illərində qüvvəyə minsə də, 2003-cü ildən etibarən inkişaf etməyə başlamışdır. 2003-2008-ci illər ərzində lizinq şirkətlərinin portfelində hər il ən azı iki dəfə artım müşahidə edilmiş, lakin 2008-ci ildən bəzi güzəştlərin və imtiyazların dayandırılması ilə Azərbaycanın lizinq bazarında geriləmə müşahidə edilmişdir. Hazırda lizinq haqqında nəzərdə tutulan yeni qanunun qəbulu lizinq bazarının daha sürətlə inkişaf etməsi üçün güzəştlərin tətbiq olunmasını və yeni tənzimlənmə mexanizmlərini müəyyənləşdirəcəkdir. Vahid qanun əsasında müvafiq normativ-hüquqi baza formalaşdırılacaq və lizinq şirkətlərinin fəaliyyəti üçün daha əlverişli şərait yaradılacaqdır. Şirkət maliyyə lizinqi bazarında rəqabət aparır. Emitent daşınar və daşınmaz əmlakların maliyyə lizinqinə verilməsi sahəsində fəaliyyət göstərir. Bu sahəyə təsir edən tendensiya satış baxımından kredit faiz dərəcələri və daşınar və daşınmaz əmlakların qiymətlərindəki dəyişkənliklər, lizinq ödənişləri baxımından isə lizinqalanların ödəmə qabiliyyətidir. Eyni zamanda "Lombardlar haqqında Qanun"un qəbulundan sonra struktur, proqram təminatı və xüsusi ilə nəzarət mexanizimləri mövcud olmayan lombard və maliyyə lizinq fəaliyyəti ilə məşğul olan təşkilatların ləğvi emitentin filial şəbəkəsinin və gəlirlərinin artımına səbəb olacaqdır.

**2.5. Emitentin digər hüquqi şəxslərdə mövqeyinin qısa təsviri:**

Emitent hər hansı digər hüquqi şəxsin iştirakçısı deyil.

**2.6. Emitentin nizamnamə kapitalında mühüm iştirak payına sahib olan səhmdarların adları, vətəndaşlığı və onlara məxsus səhmlərin sayı və nizamnamə kapitalında olan faiz nisbəti:**

Emitentin nizamnamə kapitalında 10 (on) faizdən artıq iştirak payı olan səhmdarının payı aşağıdakı kimidir:

| | **Adi səhmlərinin sayı** | % | **Vətəndaşlıq** |
|---|---|---|---|
| Əzizov Səbuhi Məmmədsani oğlu | 100 | 50 | Azərbaycan |
| Hüseynov Kazım Hətəmxan oğlu | 100 | 50 | Azərbaycan |

**2.7. Mühüm iştirak payına sahib olan səhmdarların malik olduğu səhmlar üzrə səs hüquqları barədə məlumat;**

Səhmdarların Ümumi Yığıncağının Qərarları sadə səs çoxluğu ilə qəbul edilir. Belə ki, Azərbaycan

Respublikasının Mülki Məcəlləsinin 107-3.5-ci maddəsinə əsasən Səhmdarların Ümumi Yığıncağında səs vermə "bir səsli səhm - bir səsdir" prinsipi əsasında həyata keçirilir. Cəmiyyətin yenidən təşkili, ləğvi, nizamnaməsinə əlavə və dəyişikliklərin edilməsi haqqında qərarlar səhmdarların ümumi yığıncağında səsvermə hüququna malik olan səhmdarların üçdə iki səs çoxluğu ilə qəbul edilir.

Səhmdarların ümumi yığıncağında səsli səhmlərin 60 % (altmış faiz) sahibləri iştirak etdikdə ümumi yığıncaq səlahiyyətlidir.

**2.8. Mühüm iştirak payına sahib olan səhmdarlar tərəfindən emitentə nəzarətin xüsusiyyəti:**

Cəmiyyət aşağıdakı orqanlar tərəfindən idarə olunur:

- Ali idaraetme orqanı olan Səhmdarların Ümumi Yığıncağı
- Müşahidə Şurası
- İcra orqanı olan Direktor

Səhmdarların Ümumi Yığıncağı emitentin fəaliyyəti ilə bağlı istənilən məsələni müzakirə edə bilər. Ümumi Yığıncaq növbəti və növbədənkənar ola bilər. Cəmiyyətin Müşahidə Şurası öz səlahiyyətləri hüdudlarında ümumi rəhbərliyi və Cəmiyyətin fəaliyyəti üzərində nəzarəti həyata keçirir. Cəmiyyətin icra orqanı cəmiyyətin cari fəaliyyətinə rəhbərlik və onun işlərinin aparılmasını həyata keçirdir.

**2.9. Son üç maliyyə ili ərzində hər maliyyə ili üzrə seçilmiş maliyyə məlumatı əsasında emitentin maliyyə durumunun əsas göstəriciləri. Aralıq dövrlər üçün seçilmiş maliyyə məlumatı verildiyi zaman əvvəlki maliyyə ilində eyni dövr barədə müqayisəli məlumatlar verilməlidir. Maliyyə məlumatları ətraflı izah ilə müşayiət olunmalıdır.**

Azərbaycan Manatı ilə

| Göstəricilər: | 2022 Audit olunmuş | 2021 Audit olunmuş | 2020 Audit olunmuş |
|---|---|---|---|
| Xalis mənfəət | 1,360,700 | 589,477 | 538,872 |
| Cəmi Aktivlər | 26,781,753 | 20,782,274 | 19,203,425 |
| Cəmi Öhdəliklər | 26,182,410 | 20,628,305 | 18,852,508 |
| Cəmi Kapital | 599,343 | 153,969 | 350,917 |
| Bank kreditləri | 24,344,260 | 19,176,392 | 17,233,129 |
| Pul vəsaitləri | 189,149 | 226,426 | 214,964 |

Son dərc olunmuş audit edilmiş maliyyə hesabatlarından bəri emitentin fəaliyyətində dəyişiklik olmamışdır.

**2.10. Seçilmiş proforma maliyyə məlumatı. Seçilmiş proforma maliyyə məlumatının emitentin fərziyyəyə əsaslanan vəziyyətinin təsvir edilməsi və buna görə də şirkətin faktiki maliyyə göstəricilərini özündə əks etdirməməsi barədə qeyd:**

Seçilmiş proform maliyyə məlumatları mövcud deyil.

**2.11. Gəlir proqnozunun mövcud olduğu zaman bu barədə qeyd:**

Gəlir proqnozu mövcud deyil.

**2.12. Audit edilmiş maliyyə məlumatlarına dair auditorun rəyinin qısa təsviri:**

Kənar Audit rəyinə əsasən, "Kredit Evi" Qapalı Səhmdar Cəmiyyətinin əlavə edilmiş maliyyə hesabatları Cəmiyyətin 31 dekabr 2022-ci il tarixinə olan maliyyə vəziyyətini, habelə göstərilən tarixdə başa çatmış il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə düzgün əks etdirir.

**2.13. "Dövriyyə kapitalının emitentin cari ehtiyacları üçün kifayət etmədiyitəqdirdə tələb olunan əlavə vəsaitlərin mənbələri barədə məlumat:** Dövriyyə kapitalının emitentin cari ehtiyacları üçün kifayət etmədiyi təqdirdə emitent təsisçilər tərəfindən əlavə vəsait qoyuluşu və Banklar tərəfindən alınacaq kredit vəsaiti ilə əlavə vəsaitlarin cəlb edilməsi imkanına malikdir.

## 3. SƏHMLƏR HAQQINDA MƏLUMAT

**3.1. Səhmlərin növü və dövlət qeydiyyat nömrəsi:** adi adlı sənədsiz səs hüququ verən səhm (bundan sonra:səhm və ya səhmlər),Dövlət qeydiyyat nömrəsi - AZ1001021497

**3.2. Emitentin emissiya hesabında olan səhmlərinin sayı və nominal dəyəri:** Hər birinin nominal dəyəri 20 (iyirmi) manatdan olan, 200 (iki yüz) ədəd adi,adlı,sənədsiz səhm. )

**3.3. Emitentin törəmə müəssisələrinə məxsus emitentin səhmlərinin sayı və nominal dəyəri:**

"Kredit Evi" ASC-nin törəmə müəssisəsi yoxdur.

**3.4. Səhmlərlə təsbit olunan hüquqlar:**

• Cəmiyyətin idarə edilməsində Azərbaycan Respublikasının Mülki Məcəlləsi, digər qanunvericiliklə və bu nizamnamə ilə müəyyən edilmiş qaydada iştirak etmək, onun idarəetmə və icra

orqanlarına seçmək və seçilmək;

• Bu nizamnamə və qanunvericiliklə müəyyən edilmiş qaydada, cəmiyyətin fəaliyyətinə dair məlumatlar almaq, ildə bir dəfə onun illik hesabatı və maliyyə hesabatları ilə tanış olmaq

• Ümumi yığıncağın çağırılmasını tələb etmək;

• Ümumi yığıncağın gündəliyində dəyişikliklərin edilməsini və gündəliyə yeni müzakirə mövzularının əlavə olunmasını tələb etmək;

• Ümumi yığıncaqda səsvermə hüququ ilə şəxsən və ya etibarnamə əsasında nümayəndəsi vasitəsilə iştirak etmək və onun protokolunun surətini tələb etmək;

• Cəmiyyətin fəaliyyətinin təftiş komissiyası və ya auditor tərəfindən yoxlanılmasını tələb etmək;

• Cəmiyyətin xalis mənfəətindən dividend almaq;

• Cəmiyyətin fəaliyyətinə xitam verildikdə, cəmiyyətin kreditorlarının tələbləri yerinə yetirildikdən, hesablanmış, lakin ödənilməmiş dividendlər, habelə imtiyazlı səhmlərin ləğvetmə dəyəri ödənildikdən sonra cəmiyyətin yerdə qalan əmlakının müəyyən hissəsini almaq;

• Azərbaycan Respublikasının qanunvericilik aktları ilə müəyyən edilən digər hüquqlara malik olmaq.

**3.5. Səhmlərlə təsbit olunan məhdudiyyətlər:**

Səhmlərə hər hansı məhdudiyyət təsbit edilməmişdir.

**3.6. Səhmlərin tənzimlənən bazarda ticarətə buraxılması barədə emitent tərəfindən müraciətin edilməsinin nəzərdə tutulub-tutulmaması barədə məlumat. Belə bir müraciətin edilməsi nəzərdə tutulduğu halda səhmlərin ticarətə buraxılacağı tənzimlənən bazar barədə məlumat və ticarətə buraxılmanın şərtləri;**

• Səhmlərin yerləşdirilməsi kütləvi təklif üsulu ilə Emitentin anderrayteri "Assist Finance" İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyəti (VÖEN:2004868781) vasitəsilə Bakı Fond Birjası vasitəsilə nominal qiymətlə həyata keçiriləcəkdir. Bununla bağlı müraciət Mərkəzi Bank tərəfindən bu səhmlərin buraxılışının dövlət qeydiyyatı və emissiya prospekti təsdiq edildikdən sonra baş tutmalıdır. Səhmlərə alqı-satqı əqdləri Azərbaycan Respublikasının ərazisində fond birjasında bağlanılır. Fond birjasında səhmlərin alqı-satqı əqdləri yalnız bu səhmlərin fond birjasının daxili qaydalarına əsasən kütləvi ticarətə qəbulundan sonra həyata keçirilir.

"Bakı Fond Birjası" Qapalı Səhmdar Cəmiyyəti. Bakı Fond Birjası 2000-ci ildə qapalı səhmdar cəmiyyəti formasında təsis edilmiş və hazırda yerli banklar, investisiya şirkətləri və Borsa İstanbul da daxil olmaqla 20 səhmdarı mövcuddur. Bakı Fond Birjası 21 iyul 2000-ci il tarixində fond birjası fəaliyyətini həyata keçirməyə icazə verən 5 saylı müddətsiz lisenziyanı əldə etmişdir və hazırda Azərbaycanda qiymətli kağızlarla mütəşəkkil ticarətin yeganə təşkilatçısı qismində çıxış edir.

VÖEN: 1700262271

Lisenziya müddəti: müddətsiz.

**3.7. Emitentin dividend siyasətinin təsviri:**

Cəmiyyətin xalis mənfəəti vergilər və digər məcburi ödənişlər ödənildikdən sonra yaranır və qanunvericiliklə və cəmiyyətin nizamnaməsi ilə müəyyən edilən məqsədlərə yönəldilə bilər. Xalis mənfəətin cəmiyyətin maliyyə ili üzrə bölüşdürülməsi Cəmiyyətin səhmdarlarının ümumi yığıncağının qərarı ilə qəbul edilir. Cəmiyyət nizamnamədə müəyyən edilməsindən asılı olaraq dövriyyədə olan səhmlər üzrə aralıq (rüblük, yarımillik) və illik dividendlər ödəyə bilər. Cəmiyyətin dividendlərin ödənilməsi barədə öhdəlikləri onların ödənilməsi haqqında qərarın qəbul edildiyi gündən etibarən yaranır və 30 (otuz) gün müddətində icra edilir. Əgər Cəmiyyətin xalis aktivlərinin dəyəri onun nizamnamə kapitalının miqdarından azdırsa və ya dividendlərin ödənilməsi nəticəsində az olacaqsa, Cəmiyyət dividendləri elan edə və ödəyə bilməz.

Adi səhm üzrə dividend Cəmiyyətin xalis mənfəətinin səhmdarlara hər bir adi səhm üzrə hesablanmış ödənişlər şəklində bölüşdürülmüş hissəsidir.

## 4. RiSK FAKTORLARI

**4.1. Təklif olunan səhmlərlə əlaqəli bazar risklərini qiymətləndirmək üçün zəruri olan risk faktorları:**

- Valyuta riski – valyuta məzənnəsinin əlverişsiz şəkildə dəyişməsindən yaranan itki riski - Şirkətin aktivlərinin əsas hissəsini təşkil edən lombard kreditləri üzrə girov təminatı qismində çıxış edən qızıl-zinət əşyalarının daxili bazarda dəyəri qızılın dünya bazarında qiyməti ilə tənzimləndiyi üçün milli valyutanın dəyərdən düşməsi nəticəsində aktivlərin dəyərsizləşməsi riski minimum səviyyədədir. Bu isə öz növbəsində şirkətin aktivlərinin dəyərində itkinin baş verməsi və səhmlərin dəyər itirməsi risklərini minimuma endirir.
- Faiz riski - faiz dərəcələrinin dəyişməsi ilə bağlı yarana biləcək itki riskidir. Şirkətin aktivlərinin gəlirliliyinin yüksək səviyyədə saxlanılması əsas hədəflərdəndir. Bu istiqamətin təmin edilməsi üçün yüksək gəlirli məhsulların bazara təklif edilməsi, əməliyyat xərclərinin azaldılması və proseslərin optimallaşdırılması daim diqqətdə saxlanılır.

Bunun nəticəsi olaraq son 3 ildə aktivlərin gəlirlilik göstərici artan tendensiyadadır.Bu isə öz növbəsində faizlərin azalması nəticəsində mənfəətin azalması və səhmlərin dəyərində itki baş verməsi risklərini minimumda saxlayır.

- İnflyasiya riski - pulun alıcılıq qabiliyyətinin aşağı düşməsi ilə bağlı risk; Şirkətin aktivlərinin gəlirliyi ölkə üzrə inflyasiya səviyyəsindən yuxarı olduğu üçün bu risk hazırda minimum səviyyədədir.
- Likvidlik riski – müəyyən anda aktivlərin satışı və ya alışı ilə bağlı çətinliklərin yaranması mümkünlüyü - Şirkətin maliyyə komandası likvidliyin idarə edilməsinə xüsusi diqqət yetirir. Mövcud maliyyə axını şirkətin öz öhdəliklərini cari, qısamüddətli və uzunmüddətli zaman kəsiyində yerinə yetirmək üçün yetərlidir.
- Əməliyyat riski - daxili proseslər, sistem pozuntuları, insan faktoru və xarici hadisələrdən meydana gələn itki riskləri-Əməliyyat mühitinə nəzarət İdarəetmə bloku və daxili nəzarət bloku vasitəsilə həyata keçirilir. Daxili audit müstəqil bölmə olaraq birbaşa Müşahidə şurasına dövrü olaraq hesabat verir və aparılan yoxlamalar nəticəsində müəyyən edilmiş risk və pozuntulara dair məlumatlandırır. Proseslərə bu cür nəzarətin qurulması daxili proseslərin optimallaşdırılması və risk əsaslı yanaşmaların tətbiqinə köməklik etməklə əməliyyat risklərinin minimum səviyyədə saxlanılmasına şərait yaradır.
- Hesablaşma və kontragent riski – hesablaşmanın vaxtından gec aparılması və aparılmasından əvvəl kontragentin öhdəliklərini icra edə bilməməsi səbəbindən meydana gələn itki riskləri - Kontragentlərlə əməliyyatlar daha çox xidmətin göstərilməsindən sonra ödənişlərin həyata keçirilməsi prinsipi üzrə qurulduğundan bu cür risklər minimum səviyyədə saxlanılır.Avans ödənişləri əsasında xidmət alınması yalnız Dövlət orqanları ilə aparılır (Asan Finance, İnternet xidmətləri).
- Kredit riski - borcalanın öhdəliklərini yerinə yetirə bilməməsindən meydana gələn itki riskləri. Şirkətin kredit və lizinqləri tam təminatlı olduğu üçün öhdəliklərin yerinə yetirilməməsindən yaranan risk hazırda minimum səviyyədədir.
- Səhm qiymət riski - səhm qiymətlərində olan volatillikdən meydana gələn itki riskləri. Şirkət kütləvi təklif üsulu ilə ilk səhm buraxılışını həyata keçirdiyi və səhmlərin alışı üzrə səhmdarların üstünlük hüququndan istifadə etmək niyyəti nəzərə alınaraq qiymətin volatilliyi riski minimum səviyyədə olacaq.

**4.2. Emitentin va ya onun fəaliyyat göstərdiyi sahəyə xas olan risk faktorları:**

"Kredit Evi" ASC-nin fəaliyyət göstərdiyi sahəyə xas digər risk faktorları aşağıdakılardır:

- Fazi riski - Requlyator tərəfindən faiz dərəcələrinin maksimum həddinə məhdudiyyətlərin qoyulması nəticəsində yaracaq itki riski:
- Kredit riski - qızılın qiymətinin kəskin şəkildə aşağı düşməsi ilə əlaqədar, borcalan tərəfindən öhdəliklərin yerinə yetirilməməsi fonunda girovların realizasiyası zamanı əldə olan vəsaitin öhdəliyin bağlanmasını təmin edə bilməməsi nəticəsində yaranan itki riski;
- Əməliyyat riski - daxili porseslər və insan faktorundan yarana bilən itki riskləri. Bu risk faktorunun idarə edilməsi məqsədi ilə "Kredit Evi" ASC-də Daxili Audit və Daxili nəzarət strukturları yaradılmışdır. Bu strukturlar vasitəsi ilə gündəlik əməliyytalara bir başa nəzarət təşkil olunur.
- Devalivasiya riski - müştərilərimizin öhdəliklərnin kəskin artması və ödəmə qabiliyyətinin kəskin zəifləməsi, maliyyə bazarında durğunluğun yaşanması və pul axınının azalması əsas risk faktorlarındandır.

## 5. TƏKLİF

### 5.1. Emissiyanın həyata keçirilməsindən nəzərdə tutulan xərclər və cəlb olunacaq vəsaitlərin xalis məbləği:

Bakı Fond Birjasının səhmlərinin yerləşdirilməsi üzrə komissiyası 0.05% (alıcı və satıcı üzrə hər biri 200 manat olmaqla) 400 manat təşkil edir.
Milli Depozit Mərkəzində səhmlərin saxlanması və reyestrinin aparılması üzrə xidmətlərin göstərilməsinə görə emitent tərəfindən səhmin nominal dəyərinin 0.02 %-i, (minimum 50, maksimum 5000).Komissiya haqqı əqdin həcmindən asılı olaraq 80 (səksən) manat emitent tərəfindən ödənilir.
Emissiya prospektinin qeydiyyatına alınması üçün dövlət rüsumu - 1 200 manat.

"Assist İnvestisiya Şirkəti" ASC qiymətli kağızların yerləşdirilməsi üzrə komissiyası 0.1% . Əqdin həcmindən asılı olaraq 400 (dörd yüz) manat emitent tərəfindən ödənilir.
Emissiyanın həyata keçirilməsi nəticəsində cəlb olunacaq vəsaitlərin xalis maksimum məbləği 397 920 manatdır.

### 5.2. Təklifin səbəbləri, gəlirlərin istifadəsi, gəlirlərin nəzərdə tutulanxalis məbləği:

Nizamnamə kapitalının artırılması. Emissiyanın həyata keçirilməsi nəticəsində cəlb olunacaq vəsaitlərin xalis maksimum məbləği 397 920 manatdır və bu gəlir lombard kreditlərinin və maliyyə lizinqinin verilməsi üçün istifadə ediləcəkdir.

**5.3. Təklifin şərtlərinin təsviri:**

Səhmlərin yerləşdirilməsi kütləvi təklif üsulu ilə, emitentin anderayteri "Assist İnvestisiya Şirkəti" ASC (VÖEN:2004868781) vasitəsilə "Bakı Fond Birjası" QSC-də həyata keçiriləcək.

Təklif olunacaq səhmlərin nominal dəyəri - 20 (iyirmi) manat

Təklif olunacaq səhmlərin sayı - 20000 (iyirmi min) ədəd

Təklif olunacaq səhmlərin ümumi məbləği - 400 000 (dörd yüz min) manat

Kütləvi təklif edilən səhmlərə anderrayter tərəfindən abunə yazılışı səhmlərin yerləşdirilməsindən əvvəl həyata keçirilir. Abunə yazılışına səhmlərin dövlət qeydiyyatına alınmasından 15 (on beş) iş günü sonra və ya mövcud səhmdarların üstünlük hüququndan istifadəyə münasibəti bildirən bildirişləri aldıqdan sonra başlanılacaq və 3 (üç) iş günü müddətində davam edəcəkdir. Abunə yazılışı başa çatdıqdan sonra 2 (iki iş) günü ərzində səhmlərin yerləşdirilməsinin başlama tarixi elan edilir və abunə yazılmış şəxslərə bu barədə bildiriş göndərilir.

Səhmlərin yerləşdirilməsinə Emitent tərəfindən elanda qeyd edilən tarixdə başlanılacaq və 7 (yeddi) iş günü ərzində başa çatdırılacaqdır. Kütləvi təklif olunan səhmlərin yerləşdirilməsi aşağıdakı ardıcıllıqlahəyata keçiriləcəkdir.

- ilk 2 iş günü ərzində üstünlük hüququna malik olan səhmdarlar arasında səhmlərin yerləşdirilməsi
- digər investorlar arasında səhmlərin yerləşdirilməsi

Səhmlərin dəyəri nağdsız qaydada,milli valyutada manatla ödənilir və bu pul vəsaiti klirinq təşkilatının üzvü olan Bank "BTB" ASC-də - emitentin açdığı müvəqqəti cari hesabda (yığım hesabı) saxlanılır. İnvestorlar tərəfindən ödənilmiş pul vəsaitləri qeyd edilən yığım hesabında saxlanılır və həmin vəsaitlərin istifadəsinə yerləşdirmə başa çatdıqdan və emissiyanın və ya kütləvi təklifin yekunları haqqında hesabat təsdiq edildikdən sonra yol verilir.

**5.4. Emissiyada iştirak edən şəxslərin maraqları, o cümlədən maraqların toqquşması, barədə ətraflı məlumat:**

**5.4.1. "Bakı Fond Birjası" QSC.** "Bakı Fond Birjası" QSC səhm və digər növ qiymətli kağızlarla ilkin və təkrar bazarda mütəşəkkil ticarəti təşkil edir. "Bakı Fond Birjası" QSC "Kredit Evi" ASC-nin və digər emitentlərin emissiya etdiyi qiymətli kağızların onun ticarət platformasında ticarətə buraxılmasında marağı kommersiya xarakterlidir. "Bakı Fond Birjası" QSC qiymətli kağızların yerləşdirilməsi və tədavülündən habelə qiymətli

kağızları öz tarif cədvəlinə uyğun olaraq xidmət haqqı tutur.

**5.4.2. Milli Depozit Mərkəzi.** Milli Depozit Mərkəzi (MDM) Qiymətli Kağızlar Bazarı haqqında Qanunun 16.1-ci maddəsinə əsasən təsis edilan qeyri-kommersiya hüquqi şəxsidir. MDM Azərbaycan Respublikasında qiymətli kağızların saxlanılması, qiymətli kağızların reyestrinin aparılması, qiymətli kağızlar üzrə ödəniş agenti va digər aidiyyatı xidmətləri göstərir. "Kredit Evi" ASC-nin tədavüldə olan səhmləri MDM-də saxlanılır, bu səhmlərin mülkiyyətçilərinin (səhmdarların) reyestri və mülkiyyət hüquqlarının uçotu da MDM tərəfindən aparılır. "Kredit Evi" ASC-nin yeni buraxılacaq səhmləri üzrə müvafiq xidmətlər MDM tərəfindən həyata keçiriləcəkdir. Bu xidmətlərin göstərilməsinə görə MDM öz tarif cədvəlinə uyğun olaraq xidmət haqqı tutur.

**5.4.3."Assist Finance İnvestisiya Şirkəti" ASC**. 15.02.2018-ci il tarixində dövlət qeydiyyatına alınmış Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası tərəfindən verilmiş 12 oktyabr 2018-ci il tarixliİŞ-03 saylı lisenziya əsasında qiymətli kağızlar bazarında əsas və yardımçı investisiya xidmətlərini göstərən peşəkar investisiya şirkəti olan "Assist Finance İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyətinin marağı kommersiya xarakterlidir.

**5.4.4.** Bu emissiyada iştirak eden MDM, BFB, emitentin Direktoru Bağırov Elşad Ramazan oğlu, emitentin direktor müavini Məmmədov Emin Fariz oğlu, kənar auditorların və anderayterin maraqlarının toqquşması iə bağlı hal mövcud deyildir.

**5.5. Təklif edilən səhmlərin mülkiyyətçilərinin adı və ünvanı, emitent ilə hər hansı bir səhmdar arasında müəyyən olunmuş müddət ərzində həmin səhmdara məxsus səhmlərin satılmaması haqqında olan müqavilələr barədə məlumat, iştirak edən tərəflər, müqavilənin müddəti:**

Emitent ilə səhmdarlar arasında onlara məxsus səhmlərin hər hansı bir müddətdə satılmamasına dair müqavilə yoxdur.

**5.6. Yeni səhm təklifi nəticəsində mövcud səhm mülkiyyətçilərinin paylarında olan dəyişmə ehtimalları (miqdarı və faizi göstərilməklə):**

Səhmlər kütləvi təklif edilir. Lakin, emitentin səhmdarları öz üstünlük hüquqlarından səhmlərin Bakı Fond Birjasında yerləşdirilməsinə başlandığı tarixdən ilk 2 (iki) iş günü ərzində istifadə edərək nizamnamə kapitalındakı paylarına mütənasib qaydada yeni buraxılan səhmləri əldə edə bilərlər. Səhmdarlar öz üstünlük hüququndan istifadə etdikdə,hər səhmdar üzrə 10 000 ədəd (50%) səhm olmaqla payında artım olacaq.Üstünlük hüquqdan istifadə etmədikdə hər səhmdarın payı 100 ədəd səhm qalmaqla 0.5 % təşkil edəcəkdir.

5.7. **Səhm alıcısının ödəməli olduğu vergi və xərclərin məbləği:**

Hər bir səhmdar Cəmiyyətin illik mənfəətinin məbləğindən malik olduğu səhmin dəyərinə uyğun olaraq dividend alır.Vergi Məcəlləsinə əsasən rezident müəssisə tərəfindən ödənilən dividenddən ödəmə mənbəyində 10 faiz dərəcə ilə vergi tutulur. Vergi Məcəllənin 102.1.22-2-ci maddəsinə əsasən 2023-cü il fevralın 1-dən etibarən fiziki şəxslər 5 (beş) il müddətində kütləvi təklif edilmiş və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlər və istiqrazlar üzrə ödənilən dividend, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz gəlirləri gəlir vergisindən azaddır. Səhmlərin dövriyyədə olduğu müddətdə vergi qanunvericiliyi dəyişərsə, tətbiq ediləcək vergilər barədə məlumat emitent və ya anderrayter tərəfindən kütləvi informasiya vasitələri ilə investorların diqqətinə çatdırılacaqdır.

Bakı Fond Birjasının səhmlərin alqı-satqı üzrə komissiyası - 0.05%(min.0.5- max.500 azn).

Hesab açılması üçün-50 azn

İnvestisiya Şirkətinin yerləşdirmə əməliyyatı üzrə komissiyası - əqdin həcminin 0.01%

**5.8. Səhmlərin yerləşdirilməsində iştirak edəcək anderrayter barədə məlumat(adı, lisenziyasının nömrəsi, verilmə tarixi).**

"Assist Finance İnvestisiya Şirkəti" ASC anderrayter təyin edilmişdir.

Hüquqi ünvanı: Azərbaycan Respublikası, Bakı şəhəri, AZ1025,

Xocalı Pr 37, Dəmirçi Plaza;

Telefon: (994 12) 310 34 20;

E-mail:

info@assistfinance.az

VOEN: 2004868781

"Assist Finance İnvestisiya Şirkəti" ASC Azərbaycan Respublikasının MaliyyəBazarlarına Nəzarət Palatası tərəfindən verilmiş İŞ-03 saylı, 12 oktyabr 2018-ci il tarixli lisenziya əsasında qiymətli kağızlar bazarında əsas və yardımçı investisiya xidmətlərini göstərən peşəkar investisiya şirkətidir.

**5.9. Səhmlərin təklifinin və yerləşdirilməsinin başlama və başa çatma tarixləri:** Səhmlərin yerləşdirilməsi kütləvi təklif üsulu ilə, emitentin anderayteri "Assist Finance İnvestisiya Şirkəti" ASC (VÖEN 2004868781) vasitəsilə "Bakı Fond Birjası" QSC-də həyata keçiriləcək.Kütləvi təklif edilən səhmlərə abunə yazılışı səhmlərin yerləşdirilməsindən əvvəl həyata keçirilir. Abunə yazılışına səhmlərin dövlət qeydiyyatına alınmasından 15 (on beş) iş günü sonra və ya mövcud səhmdarların üstünlük hüququndan istifadəyə münasibəti bildirən bildirişləri aldıqdan sonra başlanılacaq və 3 (üç) iş günü müddətində davam edəcəkdir.

Abunə yazılışı başa çatdıqdan sonra 2 (iki) iş günü ərzində səhmlərin yerləşdirilməsinin başlama tarixi elan edilir və abunə

yazılmış şəxslərə bu barədə bildiriş göndərilir. Səhmlərin yerləşdirilməsinə Emitent tərəfindən elanda qeyd edilən tarixdə başlanılacaq və 7 (yeddi) iş günü ərzində başa çatdırılacaqdır. Kütləvi təklif olunan səhmlərin yerləşdirilməsi aşağıdakı ardıcıllıqla həyata keçiriləcəkdir.

- ilk 2 iş günü ərzində üstünlük hüququna malik olan səhmdarlar arasında səhmlərin yerləşdirilməsi
- digər investorlar arasında səhmlərin yerləşdirilməsi

Yerləşdirmənin başlanma tarixində səhmlərin satış qiyməti səhmlərin nominal dəyərinin 100 faizini, yəni bir ədəd səhmin satış qiyməti 20 (iyirmi) manat təşkil edir. Səhmlərin dəyəri nağdsız qaydada,milli valyutada manatla ödənilir.

**5.10. Anderrayter tərəfindən təklifin şərtləri barədə məlumatın investorlara təklif zamanı təqdim olunması barədə qeyd.**

Abunə yazılışı dövründə anderrayter öz səlahiyyətləri çərçivəsində potensial investorları emissiya şərtləri ilə tanış edir, emissiya şərtlərini onlara izah edir, sifarişlərin hazırlanmasına köməklik edir və sifarişləri qəbul edilir.

## I Hissə

## SƏHMLƏRİN EMİTENTİ BARƏDƏ TƏLƏB OLUNAN MƏLUMATLAR

### 6. Emitentin auditorları barədə məlumat

**6.1. Son üç maliyyə ili ərzində emitentin auditorlarının adı, ünvanları vəhər hansı təşkilatda üzvlüyü barədə məlumat;**

| İL: | Auditor un adı: | Auditorun ünvanı: | Auditorun üzv olduğu təşkilat: |
|---|---|---|---|
| **2020** | PRİME AUDİT AND CONSULTİNG MMC | DƏMİRÇİ PLAZA, XOCALI PR. EV 37 | PRAXİTY EMPOWERİNG BUSİNESS GLOBALLY |
| **2021** | BAKER TİLLY AZERBAİJAN | CİTY POİNT BAKU, C.MƏMMƏDQULUZADƏ KÜÇƏSİ, EV 102A | BAKER TİLLY İNTERNATİONAL |
| **2022** | BAKER TİLLY AZERBAİJAN | CİTY POİNT BAKU, C.MƏMMƏDQULUZADƏ KÜÇƏSİ, EV 102A | BAKER TİLLY İNTERNATİONAL |
| **2023 aralıq** | TİD KONSALTİNG | CİTY POİNT BAKU, C.MƏMMƏDQULUZAD | AUDİTORLAR PALATASI |

| | | | |
|---|---|---|---|
| **maliyyə hesabatı** | | Ə KÜÇƏSİ, EV 102A | |

**6.2. Son üç maliyyə ili ərzində auditorların əvəzlənməsi və ya dəyişdirilməsibarədə, səbəbləri göstərilməklə məlumat.**
Beynəlxalq təcrübəyə uyğun olaraq audit təşkilatının müəyyən müddətdən sonra dəyişdirilməsi praktikasına əsasən auditor 2021-ci ildə və 2023-cü ildə dəyişdirilmişdir.

## 7. SEÇİLMİŞ MALİYYƏ MƏLUMATI

**7.1. Son üç maliyyə ili ərzində (hər maliyyə ili üzrə ayrı-ayrılıqda göstərməklə) seçilmiş maliyyə məlumatı əsasında emitentin maliyyə durumunun əsas göstəriciləri. Aralıq dövrlər üçün seçilmiş maliyyə məlumatı verildikdə əvvəlki maliyyə ilində eyni dövr barədə müqayisəli məlumatlar verilməlidir.**
Bu barədə məlumat hazırki emissiya prospektinin Xülasə hissəsinin 2.9-cu bəndində açıqlanır.

## 8. EMİTENT BARƏDƏ MƏLUMAT

**8.1. Emitentin tam adı, təşkilati-hüquqi forması**
"Kredit Evi" Açıq Səhmdar Cəmiyyəti

**8.2. Emitentin dövlət qeydiyyatının rekvizitləri** "Kredit Evi" Açıq Səhmdar Cəmiyyəti 15.03.2017 ci il tarixində təsis edilmişdir.(VÖEN: 1602863891)

**8.3.** Emitentin təşkilati – hüquqi forması dəyişdirildikdə, onun bütün əvvəlki adları, təşkilati-hüquqi formaları, o cümlədən dəyişikliklərin dövlət qeydiyyatı tarixi:
"Kredit Evi" MMC 15.03.2017-ci il tarixində 1602863891 vergi ödəyicisinin eyniləşdirmə nömrəsi ilə dövlət qeydiyyatına alınmış, 15.07.2017-ci il tarixində "Kredit Evi" QSC kimi təşkilati hüquqi formasını dəyişmişdir. 07.09.2023-cü il tarixində təşkilatı hüquqi formasını dəyişərək "Kredit Evi" ASC olaraq qeydiyyata alınmışdır.

**8.4. Emitentin olduğu yer, poçt ünvanı, elektron poçt ünvanı,emitentin internet səhifəsinin ünvanı və əlaqə telefonları**: Hüquqi ünvan: Az1110, Bakı şəhəri, Nərimanov Rayonu, Akademik Həsən Əliyev küçəsi, ev 90A. İnternet səhifəsi: www.kreditevi.az; E-mail:info@kreditevi.az; tel:+994123103493

**8.5. Son üç maliyyə ili ərzində hər bir maliyyə ili üçün emitentin əsasinvestisiyalarının təsviri (məbləği göstərilməklə)**
Maliyyə hesabatlarının son dərc olunma tarixindən etibarən aşağıda qeyd edilmiş invesitisiyalardan başqa heç bir investisya olmamışdır
2020-ci il üzrə: Əsas vəsaitlərin alınmasına - 92342azn,

2021-ci il üzrə: Əsas vəsaitlərin alınmasına - 392342azn,

2022-ci il üzrə: Əsas vəsaitlərin alınmasına - 80367azn

**8.6. Emitentin cari investisiyalarının təsviri, onların coğrafi bölüşdürülməsi (xarici və daxili) və maliyyələşdirmə üsulu (daxili və xarici)**

Emitentin cari investisiyası üzrə maliyyələşməsi olmayıb

**8.7. İdarəetmə orqanlarının emitentin gələcək investisiyaları ilə bağlı öhdəlikləri.**

İdarəetmə orqanlarının emitentin gələcək investisiyaları ilə bağlı öhdəlikləri yoxdur.

## 9. EMİTENTİN BİZNESİNİN İCMALI

**9.1. Son üç maliyyə ili ərzində (hər maliyyə ili üzrə ayrı-ayrılıqda göstərməklə), emitentin satılmış məhsullarının və ya göstərilmiş xidmətlərin əsas kateqoriyalarını göstərərək, emitentin əməliyyatlarınınvə əsas fəaliyyətlərinin xarakteri ilə bağlı əsas faktorlar və onların təsviri:**

"Kredit Evi" ASC AR qanunvericiliyi ilə müəyyən edilmiş qaydada qısa və uzun müddətli, təminatlı kreditlər verir.

- Maliyyə lizinqi;
- Lombard kreditlərinin verilməsi;

Emitentin son üç maliyyə ili ərzində satılmış məhsulları barədə məlumat.

| Göstəricilər: | 2022-ci il | 2020-ci il | 2020-ci il |
|---|---|---|---|
| Lombard kreditləri | 19,786,657 | 15,978,793 | 14,101,828 |
| Lizinq kreditləri | 2,014,910 | 368,658 | 106,860 |

**9.2. Təqdim olunmuş yeni məhsul və ya xidmətlər barədə məlumat, onların inkişaf statusu:**

Belə bir hal mövcud deyildir.

**9.3. Emitentin rəqabət apardığı əsas bazarların təsviri və son üç maliyyə ili ərzində (hər maliyyə ili üzrə ayrı-ayrılıqda göstərməklə) fəaliyyət kateqoriyası və coğrafi amilləri nəzərə alaraq ümumi gəlirlərin qruplaşdırılması:**

"Kredit Evi" ASC-nin rəqabət apardığı əsas fəaliyyəti lombard və maliyyə lizinqi bazarında təşkil edilmişdir. Qeyd edilmiş fəaliyyət bazarında əsas rəqiblər Banklar, Bank Olmayan Kredit Təşkilatları və lombard fəaliyyəti ilə məşğul olan digər maliyyə qurumlarından ibarətdir.

Son üç Maliyyə ili ərzində şirkətin fəaliyyət kateqoriyası və coğrafi amilləri nəzərə alınmaqla ümumi gəlirləri aşağıdakı kimi olmuşdur.

| Maliyyə İli | Filial sayı (Bakı) | Filial sayı (Region) | Xalis mənfəət (AZN) |
|---|---|---|---|
| 2020-ci il | 5 | 20 | 538,872 |
| 2021-ci il | 5 | 22 | 589,477 |
| 2022-ci il | 6 | 23 | 1,360,700 |

**9.4. Emitentin Biznes İcmalının 9.1-9.3-cü bəndlərində göstərilmiş məlumatlara təsir edən amillər:**

- Manatın məzənnəsinin stabil olması;
- Mərkəzi Bank tərəfindən Lombardlar haqqında nəzərdə tutulan qanunun qəbulu - Bu qanun lombard bazarının sürətli inkişafına şərait yarada bilər. Belə ki, vahid normativ bazanın yaradılması hazırda bu sahədə qeyri peşəkar xidmət göstərən təşkilatların fəaliyyətinin dayandırılmasına bu da öz növbəsində "Kredit Evi" ASC-nin bazar payının və gəlirlərinin artmasına imkan yaradacaqdır.
- Qızılın qiymətinin stabil qalması və ay artımı;

**9.5. Emitentin patent və lisenziyalardan, sənaye, kommersiya və ya maliyyə müqavilələrindən və ya istehsal proseslərindən asılılığı barədə məlumat:** Emitentin patent və lisenziyalardan, sənaye, kommersiya və ya maliyyə müqavilələrindən və ya istehsal proseslərindən asılılığı mövcud deyi.

**9.6. Emitentin rəqabət mövqeyinə dair bəyanatı olduğu halda onun əsaslandırması:**
Emitentin rəqabət mövqeyinə dair bəyanatı mövcud deyil.

## 10. DİGƏR TƏŞKİLATLARDA İŞTİRAK

**10.1. Emitentin digər hüquqi şəxlərdə mövqeyinin qısa təsviri:**
Emitent digər hüquqi şəxslərdə iştirakı mövcud deyil.

**10.2. Emitentin bütün törəmə və digər müəssisələrdə iştirakının payı (faizlə),onların tam adı, olduğu yer:**
"Kredit Evi" ASC-nin digər müəssisələrdə iştirak payı və törəmə müəssisəsi yoxdur.

## 11. EMİTENTİN ƏSAS VƏSAİTLƏRİ

**11.1. Emitentin icarəyə verilmiş, mövcud olan və əldə olunması nəzərdə tutulanəsas vəsaitləri:** 2022-ci ilin Audit hesabatına uyğun olaraq əsas vəsaitlərin detallı açıqlaması aşağıdaki cədvəl üzrə bölüşdürülür:

| N | Mövcud olan əsas vəsaitlər | Balans dəyəri |
|---|---|---|
| 1 | Binalar, tikililər, qurğular | 2,461,667 |
| 2 | Maşın və avadanlıqlar | 40,073 |

| | | |
|---|---|---|
| 3 | Kompüter və rabitə avadanlıqları | 136,705 |
| 4 | Nəqliyyat vasitələri | 42,963 |
| 5 | Digər əsas vəsaitlər (qeyri-maddi aktiv) | 22,261 |
| | **Cəmi məbləği** | 2,703,668 |

### 11.2. Əsas vəsaitlərin istifadəsinə təsir edə biləcək ətraf mühitlə (emitentin fəaliyyət istiqamətindən asılı olaraq əsas vəsaitlərin xarici amillərin təsiri altında baş verə biləcək dəyişiklik ) bağlı olan amillərin təsviri:

Əsas vəsaitlərin istifadəsinə təsir edə biləcək ətraf mühitlə bağlı olan amillər,yəni insan fəaliyyətindən aslı olmayan təbii hadisələr (təbii fəlakət,zəlzələ,daşqın tufan və s.) və ya texnogen hadisələrin baş verməsindən Emitentin əsas vəsaitləri (nəqliyyat vasitələri və digər əsas vəsaitləri) sığortalanır.

## 12. Emitentin maliyyə və əməliyyat nəticələrinin icmalı

### 12.1. Son üç maliyyə ili ərzində (hər maliyyə ili üzrə ayrı-ayrılıqda göstərməklə) audit olunmuş mənfəət və zərər göstəriciləri

**MƏNFƏƏT VƏ YA ZƏRƏR VƏ DİGƏR MƏCMU GƏLİR HAQQINDA HESABAT**

| | **2022-ci il audit olunmuş** | **2021-ci il audit olunmuş** | **2020-ci il audit olunmuş** |
|---|---|---|---|
| Faiz gəliri | 10,108,288 | 8,196,565 | 6,727,680 |
| Faiz xərci | -3,471,735 | -3,073,931 | -2,845,402 |
| **Kredit zərəri ehtiyatından əvvəl xalis faiz gəliri** | **6,636,553** | **5,122,634** | **3,882,278** |
| Kredit zərəri ehtiyatı üzrə ayırmalar | -196,652 | -173,598 | -37,703 |
| **Xalis faiz gəliri** | **6,439,901** | **4,949,036** | **3,844,575** |
| Haqq və komissiya xərcləri | - | -171,300 | - |
| Digər gəlir, xalis | 217,120 | 149,766 | 53,946 |

| | | | |
|---|---|---|---|
| İnzibati və digər əməliyyat xərcləri | -4,934,456 | -4,120,206 | -3,214,297 |
| Əsas vəsaitlərin silinməsindən zərər | -671 | -985 | - |
| **Mənfəət vergisindən əvvəlki gəlir** | **1,721,894** | **806,311** | **684,224** |
| Mənfəət vergisi xərci | -361,194 | -216,834 | -145,352 |
| **İl üzrə mənfəət** | **1,360,700** | **589,477** | **538,872** |
| **İl üzrə cəmi məcmu gəlir** | **1,360,700** | **589,477** | **538,872** |

**12.2. Emitentin maliyyə vəziyyətində dəyişikliklər baş verdiyi halda həmindəyişikliklər və onlar barədə məlumat:**
Emitentin maliyyə vəziyyətində dəyişiklik baş verməmişdir.

**12.3. Emitentin əməliyyatlardan gələn gəlirinə təsir edən amillər və gəlirin bundan nə qədər asılı olduğunu göstərən faktorlar:**

- Faiz dərəcələrinə məhdudiyyət - Azərbaycan Respublikasının Mərkəzi Bankının uçot faiz dərəcələrini mənfiyə doğru dəyişməsi;
- Vergi dərəcələrinin artması – ödəmə mənbəyində verigəyə görə güzəştin ləğvi xalis mənfəətin 10% azalmasına səbəb ola bilər;
- Məhkəmə qərarlarının icrasının ləngiməsi – emitentin vəsaitlərin nəzərdə tutulandan daha gec daxil olunmasına və beləliklə də nəzərdə tutulmuş gəlirlərinin azalmasına səbəb ola bilər.

Dünya iqtisadiyyatında baş verən mövcud dəyişiliklər fonunda qızılın qiymətinin kəskin azalması və müştərilərin ödənişlərini icra etməməsi gəlirliyə təsir edə bilər ki, bunun da qarışısını almaq məqsədi ilə təminat kimi təqdim edilmiş girovların ailə üçün nə qədər önəmli olması emitentin əsas nəzarət amillərindəndir.

**12.4. Xalis satışlarda və ya gəlirlərdə dəyişikliklər maliyyə hesabatlarında açıqlandığı halda bu dəyişikliklərin səbəblərinintəsviri:**
Xalis satışlarda və ya gəlirlərdə dəyişiklik baş verməmişdir.

**12.5. İqtisadi, fiskal, monetar, siyasi və digər amillərin emitentin əməliyyatlarına təsir etmiş və ya birbaşa və ya dolayı yolla təsir edə bilən faktorlar barədə məlumat:**

Regulyator tərəfindən faiz dərəcələrinə həddlərin müəyyənləşdirilməsi;
İnflyasiya - pulun alıcılıq qabiliyyətinin aşağı düşməsi ilə bağlı risk;
Lombard fəaliyyətinə məhdudiyyətin qoyulması;
Təbii risk - insan fəaliyyətindən asılı olmayan risk (təbii fəlakət, pandemiya, fors-major və s.);

## 13. EMİTENTİN KAPİTAL RESURSLARI

### 13.1 Emitentin kapital qoyuluşları (qısa və uzun müddətli):

Emitent tərəfindən qısa və uzunmüddətli kapital qoyuluşları aşağıdakı cədvəldə qeyd edilmişdir və son 3 Maliyyə ili ərzində digər kapital qoyuluşu həyata keçirilməmişdir.

Müştərilərə verilmiş kreditlər:

| Göstəricilər: | 2022-ci il | 2021-ci il | 2020-ci il |
|---|---|---|---|
| Qısamüddətli kreditlər | 9,763,014 | 8,762,847 | 7,808,922 |
| Uzunmüddətli kreditlər | 11,580,437 | 7,323,139 | 6,311,900 |

### 13.2 Emitentin pul vəsaitlərinin hərəkətinin mənbələrinin və məbləğlərinin izahı və təsviri:

Emitentin 2022-ci ilin sonuna pul vəsaiti qalığı cari hesabda 189149 manat olmuşdur. Pul vəsaitləri verilmiş kreditlər üzrə gəlir və banklardan cəlb edilmiş vəsaitlər nəticəsində formalaşır.

Pul vəsaitlərinin hərəkətinin mənbəələri və məbləğləri barədə izahlı şərh aşağıdakı hesabatda əks olunur.

**PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT**

| ƏMƏLİYYAT FƏALİYYƏTİ ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ: | 2022-ci il audit olunmuş | 2021-ci il audit olunmuş | 2020-ci il audit olunmuş |
|---|---|---|---|
| Mənfəət vergisindən əvvəlki gəlir | 1,721,894 | 806,311 | 684,224 |
| Düzəlişlər: | | | |
| Faiz gətirən aktivlərdə dəyərsizləşmə zərərləri üzrə ehtiyat | 196,652 | 173,598 | 37,703 |
| Köhnəlmə və amortizasiya | 636,250 | 594,191 | 470,036 |
| Faiz xərci | 3,471,735 | 3,073,931 | 2,845,402 |
| Hesablanmış alınacaq faiz gəlirlərində dəyişiklik | 83,304 | 144,219 | -291,671 |
| Əsas vəsaitin silinməsindən zərər | 671 | 985 | - |
| **Əməliyyat aktiv və öhdəliklərində dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyətindən daxil olan pul vəsaitləri** | 6,110,506 | 4,793,235 | 3,745,694 |

| | | | |
|---|---|---|---|
| **Əməliyyat aktiv və öhdəliklərində dəyişikliklər:** | | | |
| Müştərilərə verilmiş kreditlərdə xalis artım | -5,537,420 | -2,282,982 | -2,911,303 |
| Digər aktivlər üzrə xalis azalma/(artım) | -124,762 | 170,691 | -254,490 |
| Digər öhdəliklər üzrə xalis azalma/(artım) | -86,113 | 160,178 | 25,010 |
| **Vergi və faizdən əvvəl əməliyyat fəaliyyətindən daxil olan pul vəsaitləri** | **362,211** | **2,841,1221** | **604,911** |
| Mənfəət vergisi ödənişi | -247,214 | -208,236 | -116,013 |
| Müddətli borclar üzrə faiz ödənişi | -3,387,784 | -2,886,163 | -2,492,638 |
| İcarə öhdəlikləri üzrə faiz ödənişi | -113,524 | -183,931 | -260,096 |
| **Əməliyyat fəaliyyəti üzrə pul vəsaitlərinin istifadə olunması** | **-3,386,311** | **-437,208** | **-2,263,836** |
| İNVESTİSİYA FƏALİYYƏTİ ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ: | | | |
| Əmlak, avadanlıq və qeyri-maddi aktivlərin alınması | -52,796 | -80,367 | -392,342 |
| Əmlak və avadanlıqların satışından daxilolmalar | - | - | 10,020 |
| **İnvestisiya fəaliyyəti üzrə pul vəsaitlərinin istifadə olunması** | **-52,796** | **-80,367** | **-382,322** |
| MALİYYƏ FƏALİYYƏTİ ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ: | | | |
| Müddətli borc vəsaitləri üzrə daxilolmalar | 14,338,044 | 13,015,800 | 25,347,420 |
| Müddətli borc vəsaitlərinin ödənilməsi | -9,140,603 | -11,076,374 | -21,340,453 |
| İcarə öhdəlikləri üzrə əsas məbləğdən ödənişlər | -675,611 | -567,389 | -376,947 |
| Səhmdarlara verilmiş borc | -204,674 | -56,575 | -339,600 |
| Ödənilmiş dividend | -915,326 | -786,425 | -720,800 |
| **Maliyyə fəaliyyəti üzrə pul vəsaitlərinin daxil olması** | **3,401,830** | **529,037** | **2,569,620** |

**13.3. "Emitentin borclanma ehtiyacları və maliyyələşmə strukturu barədə məlumat:** Hal-hazırda emitentin borclanma ehtiyacları mövcud deyil. Lakin emitentin borclanma ehtiyacları yarandığı təqdirdə, emitent qanunla nəzərdə tutulan bütün vasitələrdən istifadə etməklə, vəsaitləri cəlb edə bilər.

**13.4. Emitentin əməliyyatlarına birbaşa va ya dolayı yolla təsir etmiş və ya təsir edə bilən kapital qoyuluşlarının istifadəsinə dair har hansı bir məhdudiyyətlərlə əlaqəli məlumat:**

Emitentin əməliyyatlarına birbaşa va ya dolayı yolla təsir etmiş və ya təsir edə bilən kapital qoyuluşlarının istifadəsinə dair har hansı bir məhdudiyyət yoxdur.

**13.5 Bu Emissiya Prospektinin 8.7-ci və 11.1-ci bəndində qeyd olunmuş öhdəlikləri yerinə yetirmək üçün tələb olunan vəsaitlərin mənbələri barədə məlumat:**

Bu Emissiya Prospektinin I hissasinin 8.7-ci və 11.1-ci bəndində qeyd olunmuş öhdəlikləri yerinə yetirmək üçün tələb olunan vəsaitlərin mənbəyi qismində emitentin faaliyyəti nəticəsində əldə olunan bütün gəlirlər çıxış edir.

## 14. Tədqiqatlar, lisenziyalar və patentlər

**14.1. Son üç maliyyə ili ərzində emitentin hesabına aparılmış tədqiqat və inkişaf fəaliyyətlərinə sərf olunmuş məbləğ daxil olmaqla, emitentin tədqiqatları, patentləri, əqli mülkiyyət obyektləri və lisenziyaları barədə məlumat.**

Son üç maliyyə ili ərzində "Kredit Evi" ASC-nin hesabına aparılmış tədqiqat və inkişaf fəaliyyətlərinə vəsait sərf olunmamışdır.

## 15. Tendensiyalar barədə məlumat

**15.1. Cari maliyyə ilinin əvvəlindən səhm buraxılışı haqqında qərarın qəbul edilməsi tarixinədək emitentin fəaliyyət göstərdiyi iqtisadi sahədə (istehsalat, satışların həcmi və mal-material ehtiyatları, xərclər və satış qiymətləri) müşahidə olunan tendensiyalar;**

2023-cü il fevralın 1-dən etibarən 5 (beş) il müddətində Azərbaycan Respublikasının ərazisində, habelə ölkə hüdudlarından kənarda rezident hüquqi şəxslər tərəfindən kütləvi təklif edilmiş və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlər və istiqrazlar üzrə ödənilən dividend, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz gəlirləri barədə vergi güzəştini qeyd etmək olar .

Dünya bazarında qızılın qiymətində baş vermiş müsbət dəyişiklik emitentin fəaliyyətinə müsbət təsir edə bilər.

**15.2. Emitentin fəaliyyətinə cari maliyyə ili dövründə təsir etmə ehtimalı olan məlum tendensiyalar, qeyri-müəyyənliklər, tələblər, öhdəliklər və ya hadisələr barədə məlumat.**

Emitent ticari ildə mənfəətliyini artırmaq üçün və cəmləşmə risklərini minimumlaşdırmaq məqsədilə yeni partnyorlarla əməkdaşlıq edir. Ölkədə pul-kredit siyasətinin sabitləşməsi kredit təşkilatlarının səmərəli olmasına şərait yaradıb və hal hazırda bazarda qeyri-müəyyənlik mövcud deyil. Emitentin öhdəlikləri cari fəaliyyət əsasında yaranan öhdəliklərdir və onlar vaxtında icra edilməkdədir.

## 16. Gəlir proqnozu:

Emitentin cari il üzrə gəlir proqnozu mövcud deyil.

**17. Emitentin təsisçiləri, idarəetmə və nəzarət orqanları:**

**17.1. Emitentin idarəetmə və nəzarət orqanlarının üzvü olan hər bir şəxs barədəaşağıdakı məlumatlar:**

**Emitentin ali idarəetmə orqanı:**

Səhmdarların Ümumi Yığıncağıdır. Səhmdarların Ümumi Yığıncağı illik və növbədənkənar keçirilir. Emitentin səhmdarlarının sayı ikidir.

| № | Adı, Soyadı, Atasının adı | Hazırda tutduğu vəzifə | Son 5 il ərzindəbu və ya digər hüquqi şəxslərdə tutduğu vəzifə | Təhsili - Universitet | ixtisas | Emitentin nizamnama kapitalın dapay, (faizla)va ya emitentin sahmlari naolan opsionlan |
|---|---|---|---|---|---|---|
| 1 | Əzizov Səbuhi Məmmədsani oğlu | Təsisçi | Təsisçi | Ali Bakı Dövlət Əmtəəşünaslıq və Kommersiya İnstitutu | Ərzaq Mallarının Əmtəəşünaslığı | 50% |
| 2 | Hüseynov Kazım Hətəmxan oğlu | Təsisçi | Təsisçi | Ali Azərbaycan Dövlət İqtisad UniversitetininDərbənd filialı | Ümumi iqtisadiyyat. Maliyyə və Kredit | 50% |

Emitentin Müşahidə Şurası barədə məlumat:

| Adı, soyadı, atasının adı | Vəzifəsi | Funksiyaları |
|---|---|---|

| | | |
|---|---|---|
| Qurbanov Mübariz Əhməd oğlu | Müşahidə Şurasının sədri | Şuranın işini təşkil etmək, iclaslarını çağırmaq və iclaslarda sədrlik etmək; Şuranın rüblük planlarını, iclas protokollarını və qəbul olunmuş qərarlarını imzalamaq və s. |
| Əzizov Səbuhi Məmmədsani oğlu | Müşahidə Şurasının üzvü | Şuranın iclaslarında təşkilatın fəaliyyəti ilə bağlı məsələləri müzakirə etmək və əhəmiyyətli qərarların qəbul olunmasında iştirak etmək; İdarə Heyəti və Komitələrdən hesabatları almaqla nəzarət funksiyası və s. |
| Əlizadə Ramin İsfəndiyar oğlu | Müşahidə Şurasının üzvü | Şuranın iclaslarında təşkilatın fəaliyyəti ilə bağlı məsələləri müzakirə etmək və əhəmiyyətli qərarların qəbul olunmasında iştirak etmək; İdarə Heyəti və Komitələrdən hesabatları almaqla nəzarət funksiyası və s. |

Direktor barədə məlumat:

| Adı, Soyadı, Atasının adı | Hazırda tutduğu vəzifə | Son 5 il ərzində bu və ya digər hüquqi şəxslərdə tutduğu vəzifə | Təhsili - Universitet | ixtisas | Emitentin nizamnama kapitlında pay, (faizla) va ya emitentin sahmlari naolan opsionlar |
|---|---|---|---|---|---|
| Bağırov Elşad Ramazan oğlu | Direktor | Daxili audit, Direktor | Ali Lənkəran Dövlət universiteti | İngilis dili və ədəbiyyat | Mövcud deyil |

**17.2. bu şəxslər arasında olan hər hansı yaxın qohumluğun mövcudluğu haqqında məlumat;**

Qohumluq əlaqələri mövcud deyil

**17.3. son beş il ərzində şəxsin vəzifə saxtakarlığı ilə bağlı məhkumluğun olub- olmaması haqqında məlumat;**

Belə bir hal mövcud deyil

**17.4. şəxsin hər hansı bir hüquqi şəxsin idarə edilməsində rəhbər vəzifə tutduğu zaman həmin hüquqi şəxsin ləğv olunması, müflis elan**

**olunması və ya müflisləşmə prosesinin başlanması haqqında məlumat**;

Belə bir hal mövcud deyil

**17.5. şəxsin xidməti vəzifələri ilə şəxsi maraqları arasında ziddiyyət yarana biləcəyi hallarda maraqların toqquşması barədə məlumat;**

Azərbaycan Respublikası Mülki Məcəlləsinin 107-10.5-ci maddəsinə əsasən cəmiyyətin icra orqanı üzvlərinin şəxsi marağı ilə cəmiyyətin maraqları arasında ziddiyyətlərə gətirib çıxara bilən, habelə Mülki Məcəllənin 49-1.6-cı maddəsindənəzərdə tutulmuş hallarda cəmiyyətin icra orqanının rəhbəri və ya digər üzvləri müvafiq məlumatı cəmiyyətin direktorlar şurasına (müşahidə şurasına), o olmadıqda, səhmdarların ümumi yığıncağına yazılı şəkildə təqdim etməlidirlər.

